# Kiko və Beşmənlər



End Violence Against Children

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Kiko və Beşmənlər

Bunlar Kiko və Pipadır. Pipa Kikonun qayğısına qalır. Kiko ağıllı Pipaya baxıb ondan çox şey öyrənir. Onlar bir-birini sevir, çox vaxt birlikdə oyun oynayır və söhbət edirlər.

Bu isə... sehrli fitdir!
Kiko hər dəfə bu fiti çalanda, Pipa sehrli şəkildə peydə olur. Pipa həmişə Kikoya kömək etməyə hazırdır!
Sehrli fit səslənir: “FİYU, FİYU!”





“O, nədir?”  Kiko soruşur.

“Bu, elektron cihazdır. Elektron  cihazları sanki başqa bir dünyaya açılan sehrli pəncərədir,” Pipa cavab verir.

“Mənə həmin dünya haqqında danış!”

“Ora elə bir yerdir ki, orada çox şeyi öyrənə və planetin hər tərəfindən olan dostlarla əylənə bilərsən,” Pipa izah edir.



“Amma ora təhlükəli ola bilər, Kiko. Çox tədbirli olmaq lazımdır”.

“Mən çox, lap çox tədbirliyəm!” Kiko deyir.

“Yaxşı. Mən sənə elektron cihazlara aid qızıl qaydaları deyərəm. Diqqətlə qulaq as”.





## BİRİNCİ

Elektron cihazlardan istifadə etməzdən əvvəl icazə almaq..



## İKİNCİ

Nəyi isə etməzdən əvvəl düşünmək.



## və ÜÇÜNCÜ

... köməyə ehtiyac olanda kömək istəmək!" Kiko əlavə edir.




"Düzdür, Kiko! Cihaza yaxın olanda, həmişə sehrli fitin yanında olsun. Kömək lazım olanda isə..."


Ey, Kiko! Gəl, mənimlə oyna! Üzünü gülməli formalara sal, mən də sənin şəkillərini çəkim!
Ey, mən onların hamısını tuta bilmirəm!!

Bir Beşmən
peydə olur və şəkilləri yeməyə başlayır. Beşmənlərin xüsusi gücü var. Onlar bir şəkli yeyəndə minlərlə şəkil yarada bilirlər.




“QARR, QARR! Onlar indi mənimdir!” deyərək, Beşmən gülür və uçub gedir.

Fiyu! Fiyu! Kiko fiti çalır.

Pipa artıq kömək etmək üçün buradadır!

Xış, xış! Pipa və Kiko bütün şəkilləri toplayırlar. Lap vaxtında! Beşmən uçub gedir.

“Macəraya bax! Gəl, indi evə gedək, Kiko!”

Çimmək vaxtıdır! Şap, şap! Kiko sıçrayan balıqları sevir.





Qapı açılır və Ekra içəri daxil olur.

“Ey, Kiko! Sən o köpüklərlə nə şirin görünürsən! Şəklini çəkə bilərəm?” Elektron cihaz soruşur.

“Yox!” Kiko qışqırır və ekrana tərəf çoxlu köpüklər üfürür.

“Yaxşı, Kiko,” Cihaz deyir və uçub gedir.



Bu necə gündür! Kiko özünü əldən düşmüş hiss edir.

“Yatmaq vaxtıdır, Kiko!” Pipa deyir.

“Yaxşı,” Kiko yuxulu-yuxulu deyir.





“Kiko, albomumuz üçün şəkil çəkə bilərəm?” Pipa soruşur.



Kiko, şəkil çəkmək barədə öyrəndiyin qaydaları xatırlaya bilərsən?



**BİRİNCİ -**

Mən həmişə əvvəlcə icazə alıram.

**İKİNCİ -**

Mənim şəklim mənimdir! “Hər kəs mənim şəklimi çəkməzdən əvvəl icazə almalıdır,” Kiko deyir.

“... və heç kim HEÇ VAXT sənin çılpaq halda şəklini çəkməməlidir,” Pipa əlavə edir.





**ÜÇÜNCÜ -**

Mənim imtina etmək hüququm var.

“Və nə etməli olduğunu bilmirsənsə...” Pipa deyir.

**FİYU, FİYU!**

“Afərin, Kiko. Bu gün macəra dolu gün oldu! Mən sənin ən sevimli mahnını fitlə oxuyacağam və sən tezliklə yuxuya gedəcəksən”





Pipa fit çaldıqca, Kiko hər yerdə konfetlərin bitdiyi bir yuxu görməyə başlayır.



Fransız versiyası:
*Kiko et les Moipartouts*

Bu sənədin tam olaraq və ya onun bir hissəsinin surətini çıxarmaq və ya tərcümə etməklə bağlı bütün müraciətlər Kommunikasiya Direktorluğuna təqdim edilməlidir (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int). Bu sənədlə bağlı bütün digər yazışmalar Demokratiya üzrə Baş Direktorluğa ünvanlanmalıdır.

© Avropa Şurası, 2020-ci il, noyabr
Şəkillər və tərtibat: AFP-Services

Bu nağıl kitabı 4-7 yaşlı uşaqlara elektron cihazlardan istifadə ilə bağlı əsas qaydaları, eləcə də öz şəkillərini və şəxsi həyatını qorumağın vacibliyini izah etmək üçün nəzərdə tutulmuşdur.
Mövzu barədə daha ətraflı məlumatla aşağıdakı saytda tanış ola bilərsiniz: **www.underwearrule.net**

Avropa Şurası bu proqrama göstərdiyi maliyyə dəstəyinə görə "Zorakılığa Son Fondu"na (End Violence Fund) öz minnətdarlığını bildirir. "Zorakılığa Son Fondu" uşaqları onlayn istismar və zorakılıq  hallarından qorumaq məqsədi daşıyan praktiki və innovativ təcrübələri təqdim edən proqramlara maliyyə dəstəyi göstərir.

Avropa Şurası insan hüquqları sahəsində qitənin aparıcı qurumudur. Onun tərkibinə 47 üzv dövlət, o cümlədən Avropa İttifaqının bütün üzvləri daxildir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları üzrə Avropa Konvensiyasını ratifikasiya etmişdirlər. Bu sənəd demokratiyanı və qanunun aliliyini qorumaq üçün tərtib olunmuşdur. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən  üzv dövlətlərdə Konvensiyanın icrasına nəzarət edilir.

AZE

End Violence Against Children

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE